# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 395 Bakı şəhəri, 15 oktyabr 2022-ci il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2013-cü il 10 iyun tarixli 111 nömrəli, "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 12 dekabr tarixli 498 nömrəli, "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın təsdiq edilməsi və "İşsizlərin qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 yanvar tarixli 14 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 25 iyul tarixli 327 nömrəli, "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 25 dekabr tarixli 503 nömrəli, "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 17 mart tarixli 97 nömrəli, "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 aprel tarixli 155 nömrəli və "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 13 avqust tarixli 207 nömrəli Qərarının ləğv edilməsi barədə" 2020-ci il 30 iyul tarixli 274 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 349-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyul tarixli 540 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1426 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725; 2017, № 2, maddə 325; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 495; 2021, № 6 (IV kitab), maddə 667, № 11, maddə 1264) aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzas 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı" üzrə:

1.2.1. 2.1.8-ci yarımbənddə "I və ya II dərəcə" sözləri "orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissənin adında "Sağlamlıq imkanları məhdud olan uşaqlar" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.3. 3.1-ci bənddə "Sağlamlıq imkanları məhdud olan uşağın" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri ilə və "sağlamlıq imkanlarının məhdudluğunu" sözləri "əlilliyini" sözü ilə əvəz edilsin;

1.2.4. Qeyd hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2217; 2018, № 4, maddə 814, № 12 (II kitab), maddə 2746; 2019, № 4, maddə 763, № 6, maddə 1141; 2020, № 2, maddələr 196, 216, № 5, maddə 650, № 11, maddə 1407; 2021, № 3, maddə 269) ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"nın 2.5-ci bəndinin ikinci cümləsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349; 2021, № 6 (IV kitab), maddə 666, № 7, maddə 873) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın 3.5-ci bəndində "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084; 2020, № 12 (V kitab), maddə 1613; 2021, № 9, maddə 1055) ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nın 2.1.3-cü yarımbəndindən ", o cümlədən, sağlamlıq imkanları məhdudluğuna" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358; 2021, № 6 (IV kitab), maddə 666, № 7, maddələr 864, 873) ilə təsdiq edilmiş "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın 3.2.1-ci yarımbəndində "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 aprel tarixli 165 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.4-cü bəndin dördüncü cümləsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

6.2. 3.13-cü bəndin ikinci cümləsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndində "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar da" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər də" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**

**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2022.- 19 oktyabr.- S.3.